# AZƏRBAYCANDA EKOLOJİ SİYASƏTİN FORMALAŞMASININ VƏ İNKİŞAF ETDİRİLMƏSİNİN HEYDƏR ƏLİYEV DÖVRÜ

**Saleh Məhərrəmov**

*AR ETN Genetik Ehtiyatlar İnstitutu, Bakı*
*salehmaharramov@mail.ru*

Ulu Öndər Heydər Əliyev Azərbaycanda rəhbər olduğu hər iki dövrdə digər sahələrdə olduğu kimi, ekoloji problemlərə və onların həllinə həmişə qayğı ilə yanaşıb. Böyük şəxsiyyət ekoloji vəziyyətdə olan çatışmamazlıqların aradan qaldırılmasını, ətraf mühitin mühafizəsini, eyni zamanda onlara xüsusi qayğı ilə yanaşmağı həmişə diqqətdə saxlayırdı. Onun hakimiyyətinin bütün illərində respublikamızda ətraf mühitin mühafizəsi sahəsində ekoloji siyasət yeni, müasir formatlarda qlobal problemlərin həlli istiqamətində qurulub.

1969-cu ildə Azərbaycan KP MK-nın Birinci katibi seçilən dahi rəhbərimiz Heydər Əliyev ölkəmizdə insan sağlamlığı üçün xüsusi əhəmiyyət kəsb edən təbiətin mühafizəsinə də diqqəti artırmış, Azərbaycan təbiətinin mühafizəsi işinə yeni qayğılarla başlamış, onun bərpası və zənginləşdirilməsi istiqamətində önəmli işlər həyata keçirmişdir.

Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi birinci dövrdə – 1969-1982-ci-illərdə ekologiya, ətraf mühitin mühafizəsi və təbii resurslardan səmərəli istifadəyə dair çox mühum 8 qanun, Azərbaycan KP MK-nın, Nazirlər Sovetinin 32 qərarı qəbul olunub. Həmin dövrlərdə Ulu Öndərin qətiyyəti və uzaqgörənliyi nəticəsində yaradılmış dövlət təbiət qoruqlarını, yasaqlıqları, parkları göstərmək olar. Azərbaycan təbiətinin qayğısına qalmağı özünün prioritet sahəsi hesab edən Heydər Əliyevin göstərişi ilə 1969-cu ildə, xüsusən də ceyranların artırılması üçün təşkil edilmiş və onun 2003-cü il 5 iyul tarixli Sərəncamı ilə milli parka çevrilmiş Şirvan qoruğunu, 1978-ci ildə yaradılmış Ağgöl, 1981-ci ildə isə təşkil edilmiş İsmayıllı qoruqlarını, Azərbaycan SSR Nazirlər Sovetinin 1974-cü il 4 iyul tarixli Qərarı ilə Bəsitçay çinar meşəsinin qoruq elan olunmasını qeyd etmək lazımdır. Su təchizatının, eyni zamanda havanın nəmliyinin yüksək olmasına baxmayaraq, 1970-ci ildə Bakı şəhərində adambaşına 6,5 kvadratmetr yaşıllıq sahəsi düşməklə, ümumilikdə 3 min hektara yaxın yaşıllıq ərazisi olub. 1971-ci il sentyabrın 7-də Bakı şəhərinin yaşıllaşdırılması haqqında verilmiş mühüm qərar sayəsində 1975-ci ildə hər bir nəfərə 17,5 kvadratmetr yaşıllıq sahəsi düşüb. Ətraf mühitin əsas oksigen və yaşıl enerji mənbəyi olan təbii bitki örtüyünün mühafizəsi bəşəriyyətin və cəmiyyətin mühafizəsidir. Ulu Öndər Heydər Əliyev ekoloji balansın tənzimlənməsində yaşıllıqların vacib roluna xüsusi əhəmiyyət verərək, 1970-ci illərdəki müxtəlif çıxışlarında XX əsrin sonuna qədər yaşıllıqların sahəsini 35-40 min hektara çatdırmağı perspektiv plan kimi qarşıya qoymuşdur.

1969-1982-ci illərdə respublikada eroziyaya məruz qalmış və kənd təsərrüfatının istifadəsindən çıxmış yararsız torpaqlarda və Xəzərsahili qumluqlarda yaşıllığı bərpa etmək və artırmaq məqsədilə 68,1 min hektar sahədə qoruyucu meşə salınmışdır. 1971-1975-ci illərdə Azərbaycanda 30 min hektar yeni suvarılan torpaqların istismara verilməsi, Kür-Araz düzənliyində 280 min hektar sahədə torpaqların yuyulması, 200 min hektar sahədə suvarma şəbəkələrinin yenidən qurulması və su təchizatının yaxşılaşdırılması, 150 min hektar sahədə hamarlama işlərinin aparılması, 400 min hektar sahədə otlaqlara su çıxarılması qarşıya bir vəzifə kimi qoyulmuşdu.

Ümummilli Liderimizin birinci hakimiyyəti dövründə ölkəmizin dövlət meşə fondu torpaqlarında 51 min hektar sahədə yeni meşəliklər salınmışdı. Fiziki olaraq edilən bu işlər həmin sahələr üzrə elm sahələrinin də inkişafını tələb edirdi. Buna görə də Azərbaycan təbiətinin və bioloji müxtəlifliyinin elmi əsaslarla mühafizəsi məqsədlərinə nail olmaq üçün inkişafına ehtiyac duyulan elm sahələri sırasında ekologiya, botanika və zoologiya elmlərinin inkişafına xüsusi diqqət və maliyyə yardımları artırıldı. 1970-ci illərdə elmə olan diqqətin, ayrılan resursların artırılması, imkanların yüksəldilməsi və yeni şəraitlərin yaradılması, kadrların düzgün yerləşdirilməsi sayəsində Azərbaycan SSR Elmlər Akademiyasının Botanika, Zoologiya, Torpaqşünaslıq və Aqrokimya institutlarında və s. elmi müəssisələrdə keçmiş İttifaq səviyyəsində əhəmiyyətli sayılan uğurlar qazanılıb.

Ölkəmizin müstəqillik qazandığı ilk illərdə yenidən hakimiyyətə gələn H.Əliyev ekoloji məsələləri bir daha ön plana çəkdi, meşə, torpaq, su və s. haqqında bir sıra yeni qanunlar qəbul edildi. 1998-ci ildə ekoloji prioritetləri müəyyənləşdirən "Ətraf mühitin mühafizəsi üzrə Milli Fəaliyyət Planı" hazırlandı. Bu Proqramda nəzərdə tutulmuş layihələrin həyata keçirilməsi hesabına Azərbaycanda müasir Təhlükəli Tullantılar poliqonu, Xıllı Nərə Balıqartırma zavodu inşa edildi.

Həmin dövrlərdə ölkəmiz Ümummilli Liderimiz tərəfindən dəstəklənən ətraf mühitin mühafizəsi və biomüxtəlifliklə bağlı çoxsaylı beynəlxalq konvensiyalara qoşulub: UNESCO-nun Ümumdünya mədəni və təbii irsin qorunması haqqında Konvensiyası (1993), Kökünün kəsilməsi təhlükəsi olan vəhşi fauna və yabanı flora növlərinin beynəlxalq ticarəti haqqında Konvensiya (1998), Avropanın canlı təbiətinin və təbii mühitinin qorunması haqqında Avropa Konvensiyası (Bern Konvensiyası, 1999), BMT-nin Bioloji müxtəliflik haqqında Konvensiyası (2000), UNESCO-nun Əsasən su quşlarının yaşama yerləri kimi beynəlxalq əhəmiyyətli olan sulu-bataqlıq yerlər haqqında Konvensiyası (Ramsar Konvensiyası, 2000).

2003-cü ildə Heydər Əliyev tərəfindən ekoloji siyasətin müasir strategiya sənədi olan "Ekoloji cəhətdən davamlı sosial-iqtisadi inkişafa dair" Milli Proqram təsdiq edildi. Qəbul edilən proqram əsasında ətraf mühitin müxtəlif sahələri üzrə 4 milli və dövlət proqramları, Kompleks Tədbirlər Planı təsdiq edilib və bu gün də həyata keçirilir.

1989-1997-ci illərdə respublikada 45 min hektar sahədə aparılan meşə bərpa işlərinin 18 min hektarı əkin və səpin üsulu ilə yerinə yetirilmişdir. 1990-1997-ci illərdə yenidən 4800 hektar sahədə bu istiqamətdə əlavə işlər görülmüşdür.

Azərbaycanda yürüdülən ekoloji siyasətin əsas məqsədi indiki və gələcək nəsillərin bioloji ehtiyaclarının təmin edilməsi naminə mövcud ekoloji sistemlərin, iqtisadi potensialın qorunması və təbii ehtiyatlardan səmərəli istifadə edilməsi ilə davamlı inkişafın təmin edilməsindən ibarətdir. Bu ənənənin, eyni zamanda ətraf mühitin mühafizəsi sahəsində aparılan siyasətin əsası xalqımızın Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulub və bu gün də davam etdirilir. Göründüyü kimi, bu işlər müasir dövrdə Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında uğurla həyata keçirilir. Bu sahədə yerinə yetirilən ardıcıl innovativ tədbirlər, görülmüş mühüm işlər ekologiya və ətraf mühitin mühafizəsi sahəsində də yeni nailiyyətlərin qazanılmasına şərait yaradıb.

Ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişafa nail olmaq, əhalini ekoloji təmiz qida məhsulları ilə təmin etmək dövlətimizin əsas hədəflərindən biridir. Ölkəmizin strateji hədəflərindən olan biomüxtəlifliyin qorunması, sənaye sahələrinin ətraf mühitə mənfi təsirinin neytrallaşdırılması, dənizin, onun akvatoriyasının, həmçinin su anbarlarının, göllərin çirklənməsinin aradan qaldırılması, yaşıl ərazilərin qorunması, artırılması və mövcud resursların səmərəli mühafizəsi, istifadəsi istiqamətində zəruri tədbirlər gələcəkdə də davam etdiriləcəkdir. Yeni yaşıllıq sahələrinin salınması və məhv olmuşların bərpası hesabına meşə sahələrinin ümumi həcmi artırılacaq, qatar və avtomobil yollarının ətraf ərazilərində zərərli amillərin aradan qaldırılması naminə yolqoruyucu yaşıllıqlar salınacaqdır. Dövlətin xalqın sağlamlığının qorunmasının qeydinə qalmasının nəticəsi olaraq istehsal və qeyri istehsal fəaliyyətləri hesabına ətraf mühitə atılan zərərli maddələrin qarşısının alınmasına dair Avropa standartlarına uyğun milli standartlar hazırlanaraq tətbiq edilir.